«AZƏRBAYCAN HAVA YOLLARI»
QAPALI SƏHMDAR CƏMİYYƏTİ
MİLLİ AVİASİYA AKADEMİYASI

*Əlyazması hüququnda*

**AĞAŞÜKÜR ƏLİHÜSEYN OĞLU HÜSEYNOV**

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ AVİASİYASINDA ƏMƏK MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİNİN KONSTİTUSİON-HÜQUQİ ƏSASLARI

İxtisaslar: 5607.01 – Konstitusiya hüququ; bələdiyyə hüququ
5609.01 – Əmək hüququ; sosial təminat hüququ

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2014**

**Dissertasiya işi Milli Aviasiya Akademiyasının**
**“Hüquqşünaslıq” kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Quliyev İbrahim Oruc oğlu**
hüquq üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Abdullayev Fərhad Sahib oğlu**
hüquq üzrə elmlər doktoru

**Məmmədov Rəşad Yusif oğlu**
hüquq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın müdafiəsi 29 noyabr 2014-cü il tarixdə saat $13^{00}$-da “Azərbaycan Hava Yolları” QSC Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən FD.06.011 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1045, Bakı şəhəri, Binə qəsəbəsi, 25-ci km, Aviaşəhərcik, 3-cü tədris korpusu, akt zalı

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” oktyabr 2014-cü il tarixdə göndərilmişdir.

**FD 06.011**
**Dissertasiya şurasının elmi katibi,**
**hüquq üzrə fəlsəfə doktoru, dosent** **F.T.Nağıyev**

## İŞIN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Azərbaycan Respublikasının mülki aviasiyası iqtisadiyyatın aparıcı sahələrindən biri olan nəqliyyat sisteminin spesifik tərkib hissəsi sayılır. Mülki Aviasiyanın inkişafı dövlətin strateji maraqları ilə bilavasitə bağlı olduğundan onun dövlət tənzimlənməsinə böyük ehtiyacı vardır. Təsadüfi deyildir ki, qloballaşmış, dünya dövlətləri içərisində özünəməxsus milli-mənəvi dəyərləri ilə demokratik inkişaf yolunu seçmiş və bu istiqamətdə böyük nailiyyətlər əldə etmiş Azərbaycan Respublikası ölkə əhalisinin hava nəqliyyatına olan tələbatının hərtərəfli və keyfiyyətli təmin edilməsi, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən dövlətimizin müdafiəsində aviasiyadan lazımi səviyyədə istifadə olunması, beynəlxalq arenada siyasi, iqtisadi, mədəni əlaqələrin dinamik inkişafı və möhkəmləndirilməsi baxımından mülki aviasiyaya böyük önəm verir. Nəqliyyat sisteminin təhlükə riski dərəcələrinə görə birincilər sırasında duran mülki aviasiya dəqiq və fasiləsiz işləmək üçün daim dövlət qayğısına, iri həcmli investisiya qoyuluşlarına ehtiyac duymuşdur.

Müstəqil Azərbaycan dövləti mülki aviasiyanın yenidən qurulması, idarəetmə sisteminin təkmilləşdirilməsi, keçmişdən miras qalmış uyğunsuzluqların aradan qaldırılması, mülki aviasiya sahəsində normativ-hüquqi bazanın yaradılması, ölkə qanunvericiliyinin ciddi şəkildə yenilənməsi üzrə bir sıra aktların qəbul edilməsi istiqamətində bir çox məsələləri aktuallaşdırmış və nəticədə lazımi inkişaf konsepsiyalarını müvəffəqiyyətlə həyata keçirmişdir.

İqtisadiyyatın ayrı-ayrı sahələrində bazar iqtisadiyyatına keçid şəraitində ictimai əmək münasibətlərinin hüquqi tənzimlənməsi sisteminin inkişafının mürəkkəb və uzunmüddətli prosesi, şübhəsiz ki, müki aviasiyadan da yan keçməmişdir.

1944-cü il dekabrın 7-də ABŞ-ın Çikaqo şəhərində imzalanmış "Mülki Aviasiya haqqında" beynəlxalq konvensiyaya 1992-ci ilin 14 iyulunda AR Milli Məclisinin 204 nömrəli qərarı əsasında qoşulmuş Azərbaycan Respublikası sonrakı müddətlərdə mülki avaisiya sahəsində özünün müstəqil milli Dövlət proqramlarını, inkişaf konsepsiyalarını, milli kadr hazırlığı üzrə direktivlərini qəbul etmiş, dünyanın aparıcı dövlətləri ilə yaxından qarşılıqlı əlaqə, əməkdaşlıq imkanları əldə etmiş, mülki aviasiya sahəsində ən müasir maddi-texniki bazaya, müasir tələblərə və beynəlxalq standartlara cavab verən peşəkar, səriştəli milli kadr potensialına malik olmuşdur.

Azərbaycan müstəqillik dövründə qoşulduğu və tərəfdar çıxdığı bir sıra beynəlxalq müqavilələrin və sazişlərin müddəalarını, Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) ilə yanaşı, Avropa Mülki Aviasiya Konfransının (ECAC), Dövlətlərarası Aviasiya Komitəsinin (DAK) standartlarını və tövsiyə edilən təcrübəsini, əmək hüquq münasibətinin tərəflərinin hüquq və vəzifələri ilə bağlı nəzərdə tutulan beynəlxalq əmək normalarının ciddi şəkildə gözlənilməsini və həyata keçirilməsini tələb edən Beynəlxalq Əmək Təşkilatının (BƏT), Avropa Sosial Xartiyasının (ASX) müvafiq sənədlərini fəaliyyətində rəhbər tutaraq "Aviasiya haqqında" qanunu, "Aviasiya təhlükəsizliyinin təmin edilməsi", xüsusən də mülki aviasiyanın ayrı-ayrı strukturlarında əmək fəaliyyətini həyata keçirən aviasiya personalının əməyinin hüquqi tənzimlənməsinin müddəalarını özündə əks etdirən Azərbaycanın Aviasiya Qaydalarını və onların icrasından irəli gələn bir sıra digər normativ-hüquqi aktları qeyd edilən beynəlxalq sənədlərə uyğunlaşdırmışdır.

Mülki aviasiyada işlərin təşkili və əmək münasibətlərinin hüquqi tənzimlənməsi istiqamətində xeyli mütərəqqi addımlar atılmasına baxmayaraq, mülki aviasiya sahəsində qanunvericiliyimizdə olan bəzi boşluqlar və çatışmazlıqlarla üzləşdiyimiz hallar qanunvericiliyə əlavə və dəyişikliklər edilməsi üçün konkret təkliflər verilməsini, mülki aviasiyada uçuşların və aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə ehtimal olunan hər hansı bir qanunsuz müdaxilə aktının qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin görülməsini aktuallaşdırır.

Mülki aviasiya işçilərinin əmək hüquq münasibətlərini tənzimləyən bu və ya digər qanunvericilik aktlarının sistemləşdirilməsi və məcəlləşdirilməsi, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün mülki aviasiya müəssisələrinin əməkdaşlarının mənimsəmə imkanlarının mümkünlüyünü nəzərə alan mükəmməl normativ-hüquqi aktların azlığı, mülki aviasiya işçilərinin iş və istirahət vaxtları ilə bağlı ICAO-nun standart və tövsiyələrinin müddəalarının milli qanunlarımızda tam ifadə olunmaması da mövzunun aktuallığını şərtləndirmişdir.

**Tədqiqat işinin obyektini** Azərbaycan Respublikasının mülki aviasiya sahəsində əmək münasibətlərinin tənzimlənməsinin konstitusion-hüquqi əsaslarının araşdırılması istiqamətində mövcud nəzəri hüquq normalarının konkretləşdirilərək işçilərin ayrı-ayrı kateqoriyalarına tətbiqinin uyğunlaşdırılması, bu sahədə beynəlxalq standartların milli qanunvericiliyə daxil edilməsi və bununla da mülki aviasiya sahəsində qanunvericiliyin sistemli şəkildə formalaşdırılması məsələləri təşkil edir.

**Tədqiqat işinin predmeti** mülki aviasiyada əmək hüquq münasibətlərinin tənzimlənməsinin nəzəri əsasları ilə bərabər, bu sahədə qüvvədə olan və Azərbaycan Respublikasının qoşulduğu və tərəfdar çıxdığı beynəlxalq konvensiyalar, müqavilələr, sazişlər, o cümlədən Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktlarında nəzərdə tutulmuş normalardır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasının mülki aviasiyasında aviasiya işçilərinin əməyinin hüquqi tənzimlənməsinin bir sıra məqamlarının araşdırılması və təhlili, habelə bu sahədə Azərbaycan Respublikası qanunvericiliyinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanmasından ibarətdir.

Tədqiqatın qarşıya qoyulan məqsədinə nail olmaq üçün aşağıdakı məsələlər araşdırılmış və həllini tapmışdır:

- mülki aviasiyada əmək münasibətlərinin tənzimlənməsi istiqamətində öyrənilmiş nəzəri biliklərin real əmək münasibətlərində tətbiqi, təhlili, bəzi anlayışların dəqiqləşdirilməsi, əmək münasibətlərinin yaranması, dəyişdirilməsi və xitamı zamanı diferensiasiyası, habelə bəzi kateqoriyadan olan işçilərin əmək münasibətlərinin tənzimlənməsi sisteminin ümumi və xüsusi halları;
- mülki aviasiyada uçuş heyətinin əməyinin hüquqi nizamlanması üçün xarakterik olan xüsusiyyətlərin araşdırılması;
- mülki aviasiyada əmək münasibətlərinin rəsmiləşdirilməsi prosedurları zamanı aşkarlanmış boşluqlarla bağlı təkliflərin hazırlanması;
- mülki aviasiyanın uçuş-dispetçer heyətinin əməyinin hüquqi tənzimlənməsi üzrə beynəlxalq, milli və lokal aktların təkmilləşdirilməsi istiqamətində müvafiq təkliflərin hazırlanması;
- mülki aviasiya işçilərinin əmək münasibətlərinin mövcudluğu prosesində iş vaxtı, istirahət vaxtı, əməyin ödənişi və əvəzli təminatların tətbiqi üzrə normaların təhlili;
- beynəlxalq və milli hüquq normalarının mülki aviasiya işçilərinin əmək münasibətləri prosesində ilkin, yenidən hazırlıq və ixtisasartırma kurslarına məcburi cəlb edilməsinin tətbiqi xüsusiyyətləri, əmək haqqı, əməyin mühafizəsi və işçilərin attestasiyası ilə bağlı aparılmış araşdırmalar üzrə təkliflər verilməsi.

**Tədqiqatın metodologiyası.** Tədqiqatın aparılması zamanı həm hüquq elmləri üçün araşdırmalarda ənənəvi tədqiqat metodu olan formal-məntiqi metoddan, həm də tarixi-müqayisəli sistemli təhlil kimi hüquqi metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri əsası.** Müvafiq olaraq ümumi hüquq nəzəriyyəsi, konstitusiya, əmək, mülki, inzibati, beynəlxalq hüquq və hüququn digər sahələri üzrə elmi araşdırmalar aparmış N.Q.Aleksandrov, S.S.Alekseyev, M.İ.Baru, L.Y.Qinzburq, S.Y.Qolovina, K.N.Qusov, V.M.Lebedev, R.Z.Livşits, A.M.Luşnikov, M.B.Luşnikova, S.P.Mavrin, Q.S.Skaçkova, İ.O.Snegiryova, V.N.Tolkunova, Y.B.Xoxlov, V.N.Skobelkin, O.C.Məmmədov, İ.O.Quliyev, A.M.Qasımov, M.N.Əliyev, Ş.B.Bayramov, İ.İ.İsmayılov, Z.İ.Cəfərov, Ə.İ.Əfəndiyev, Ş.A.Məmmədova, V.Ə.Quliyev, Z.N.Dadaşov və sair alimlərin, praktik mütəxəssislərin elmi, nəzəri və təcrübi işlərindən, fikir və təkliflərindən istifadə edilmişdir.

**Tədqiqatın normativ-hüquqi əsasını** ICAO-nun, ECAC-ın, BƏT-in mövzu üzrə müvafiq rəhbər sənədləri, Azərbaycan Respublikasının Konstitusiyası, ölkə qanunları, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları, idarə, müəssisə və təşkilatların özlərinə aid lokal xarakterli norma müəyyən edən aktları, işçilər üçün təminatları və əvəzli ödəmələri tənzimləyən kollektiv müqavilələr təşkil edir.

**Mövzunun elmi işlənmə səviyyəsi.** Mülki aviasiyada əmək münasibətləri ilə bağlı bir sıra xarici ölkələrdə, o cümlədən Rusiya Federasiyasında müəyyən tədqiqat işləri aparılsa da, qeyd edilən mövzu üzrə Azərbaycan Respublikasının sovetlər birliyinin tərkibində olduğu zaman, həmçinin müstəqilliyini bərpa etdikdən sonra hər hansı bir tədqiqat işi aparılmamış, elmi məqalələrə rast gəlinməmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi ondan ibarətdir ki, bu işdə ilk dəfə mülki aviasiyanın bütün heyətinin, xüsusən də uçuş-dispetçer heyətinin əmək münasibətlərinin hüquqi tənzimlənməsinin kompleks elmi tədqiqi aparılmışdır.

1. Azərbaycan Respublikasının mülki aviasiyasında aviasiya personalının əmək münasibətlərinin tənzimlənməsinin obyektiv və subyektiv əsasları açıqlanmışdır;
2. Mülki aviasiya işçilərinin əmək münasibətlərinin tənzimlənməsi prosesində nəzəri müddəalar tədqiq və təhlil edilərək mövcud reallıqlar şəraitində əmək münasibətlərinin yaranması,

dəyişdirilməsi və xitamı ilə bağlı normativ-hüquqi aktların qəbulu və dəyişdirilməsi məsələləri üzrə təkliflər verilmişdir;

3. Mülki aviasiya işçilərinin ayrı-ayrı kateqoriyaları barəsində tətbiq edilən qanunvericilik normalarının və eyni hüquqi qüvvəli normativ-hüquqi aktların müxtəlif kateqoriyalı işçilərə münasibətlərdə "diferensiasiyası" anlayışı dəqiqləşdirilmişdir;
4. Mülki aviasiyada uçuşların təhlükəsizliyi və aviasiya təhlükəsizliyini təmin edən işçilərin yüksək məsuliyyətini əsaslandıran normaların tətbiqini şərtləndirən əsas amillər göstərilmişdir;
5. Mülki aviasiya personalının əmək münasibətlərinin tənzimlənməsi zamanı beynəlxalq standartların və tövsiyələrin rolu və vacibliyi əsaslandırılmışdır;
6. Mülki aviasiyada aviasiya heyətinin əməyinin hüquqi tənzimlənməsində fərqli normaların tətbiqini şərtləndirən "əmək şəraiti və xarakteri", "işçilərin vətəndaşlığı", "işçinin əmək qabiliyyətinin vəziyyəti" ilə bağlı qanunvericilikdə təsbit edilmiş normaların ən tipik əsasları qeyd edilmişdir;
7. Tədqiqat işində toxunulan məsələlərin nəzəri və praktiki problemlərinin öyrənilməsi əsasında mülki aviasiyanın aviasiya heyətinin əməyinin hüquqi tənzimlənməsi haqqında Azərbaycan Respublikası qanunvericiliyinin aidiyyəti hissələrində təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlanmışdır;
8. AR ƏM-nin 2-ci maddəsinin 3-cü bəndində əlavə, yeni bir prinsipin - "hər bir işçinin iqtisadiyyat sahəsindən asılı olmayaraq ədalətli və təhlükəsiz əmək şəraitində işləmək hüququnun təmin olunması" cümləsinin daxil edilməsi və bu prinsipə uyğun olaraq AR ƏM-nin 12-ci maddəsində işəgötürənin vəzifələri sırasına "işçilər üçün təhlükəsiz və sağlam əmək şəraiti yaratmaq" kimi yeni bənd əlavə edilməsi təklifi verilmişdır;
9. AR ƏM-də əmək şəraitinin şərtləri ilə bağlı 55-ci maddənin və 158-ci maddənin 3-cü hissəsinin yeni redaksiyada, həmçinin işçinin təşəbbüsü ilə əmək müqaviləsinin ləğv edilməsi və məzuniyyətlə bağlı ayrı-ayrı maddələrdə dəqiqləşdirmələr aparılması təklifləri verilmişdir;
10. Mülki aviasiyada uçuş heyətinin yaş həddi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin mülki aviasiya sahəsində işləmələri ilə bağlı müəyyən qanunvericilik aktlarının qəbul edilməsinin zəruriliyi təklifi verilmişdir;

11. Mülki aviasiyada əvəzçilik üzrə işləməyin yol verildiyi və qadağan olunduğu hallar açıqlanmışdır;
12. Mülki aviasiyanın uçuş-dispetçer heyətinin tibbi müayinəsinin “Azərbaycan Hava Yollari” QSC-nin tibb müəssisələrində deyil, bu sahədə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə tabe olan müstəqil qurumlarda aparılması zəruriliyi qeyd edilmişdir;
13. Mülki aviasiya işçilərinin attestasiyası zamanı onların peşəkarlıq səviyyəsi ilə yanaşı, işdə irəli çəkilməyə hüququ olan şəxslərin əxlaqi keyfiyyətlərinin nəzərə alınması zəruriliyi əsaslandırılmışdır.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işi “Azərbaycan Hava Yollari” QSC-nin Milli Aviasiya Akademiyasının “Hüquqşünaslıq” kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işinin əsas müddəaları aşağıda qeyd olunan konfranslarda aprobasiya olunmuşdur:

- “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının konstitusiya təminatının aktual problemləri” mövzusunda Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 07 noyabr 2014-cü il.
- IV Международная научно-практическая конференция «Человек, общество, государство: правовое измерение в современном мире». Киев, 27 февраля 2014 г.

**Dissertasiya tədqiqatının strukturu** 3 fəsildən, 13 yarımfəsildən, nəticədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İşin əsas məzmunu

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri qeyd edilmiş, onun nəzəri və metodoloji əsasları, tədqiqat işinin elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, həmçinin müdafiəyə çıxarılan elmi müddəalar əks etdirilmişdir.

Dissertasiya işinin **birinci fəsli** “Azərbaycan Respublikasının Mülki Aviasiyasında əmək münasibətlərinin tənzimlənməsinin nəzəri əsasları” adlanır və 3 yarımfəsildən ibarətdir. **Birinci fəslin birinci yarımfəsli** əmək hüququnda əmək münasibətlərinin tənzimlənməsi anlayışına həsr edilmişdir. Burada əmək münasibətlərinin tənzimlənməsi məsələlərini, onun nəzəri əsaslarını tədqiq edən Azərbaycan və rus alimlərinin fikirləri, ideyaları diqqətə çatdırılmış, Azərbaycan Respublikasında müstəqillik əldə edildikdən sonrakı dövr ərzində həyata keçirilən özünəməxsus fərqli islahatlar və yenidənqurma tədbirlərinin nəticəsi kimi qanunvericilik bazasının yaradılması prosesində ilk mühüm addım olaraq yeni, mütərəqqi Konstitusiyasının, Əmək Məcəlləsinin qəbulu və orada təsbit olunan

vətəndaşların əmək hüququnun reallaşdırılması, əmək münasibətlərinin digər ictimai münasibətlərdən fərqləndirilməsi, hazırkı dövrdə əmək hüquq münasibətlərinin yaranması, dəyişdirilməsi və xitamının spesifik cəhətləri göstərilmişdir. Əmək münasibətlərinin formalaşdırılması ilə bağlı əmək hüququ sahəsində əksər mütəxəssislərin üst-üstə düşən fikirləri cəmləşdirilərək onun hüquqi status kəsb etməsinin, əmək müqaviləsi bağlanmadan əmək hüquq münasibətinin yaranmasının qeyri-mümkünlüyünün arqumentləri kimi aşağıdakılar qeyd edilmişdir:

- əmək hüquq münasibətinin bölünməzliyi, yəni yaranmış bu münasibətdən onun məzmununu təşkil edən hər hansı bir ünsürün (elementin) çıxarılması (ayrılması) münasibətin hüquqi ardıcıllıqla düzülüşünün pozulması və xitamını şərtləndirir;
- əmək hüquq münasibəti əmək müqaviləsi bağlandığı zaman yaranır və həmin əmək müqaviləsinə xitam verilərkən ləğv edilir. Bu qayda hal-hazırda bir qədər də sərtləşdirilmişdir. Belə ki, AR Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejmində əldə etməklə bağlı Qaydalar"a görə əmək müqavilələrinin bağlanması, dəyişdirilməsi və xitamı adı çəkilən prosedurlara riayət edildikdən və elektron imza ilə təsdiqləndikdən sonra hüquqi qüvvəyə malik olur;
- əmək hüquq münasibətində yalnız iki tərəfin - işçi və işəgötürənin olmasının əmək hüquq münasibətinin yaranmasının əsası kimi, habelə bəzi hallarda bu münasibətin yaranmasında digər iştirakçıların rolu qeyd olunur;
- mülki aviasiyada bəzi kateqoriyadan olan işçilərin (uçuşların və aviasiya təhlükəsizliyinin təmin edilməsinə cəlb edilmiş) əmək hüquq münasibətlərinin hüquqi tənzimlənməsi Azərbaycanın Aviasiya Qaydaları üzrə normativ-hüquqi aktlara istinadən şərh edilmişdir.

**Birinci fəslin ikinci yarımfəslində** əmək hüququnda əmək münasibətlərinin sistemi tədqiq edilir və göstərilir ki, əməyin maddi strukturunun, əmək fəaliyyətinin, habelə ondan irəli gələn ictimai münasibətlərin öyrənilməsi əmək münasibətlərinin ictimai əmək

formalarının əsas kateqoriyası kimi uyğunluq sistemini və məntiqi olaraq əmək münasibətləri sistemini əmək hüququnun predmeti kimi müəyyən etməyə, onun daxili strukturunu və həmin struktur elementlərinin qarşılıqlı əlaqəsini aşkarlamağa imkan verir.

Əmək hüquq münasibətlərinin öyrənilməsində sistem yanaşmanın müxtəlif aspektlərinin mövcudluğu və bununla bağlı real həyatda əmək prosesində yaranan ictimai münasibətlərdən reallaşmış hüquq münasibətlərinin ardıcıllıqla "bütövlük təşkil edən" elementlərinin kompleks əlaqəsi" aşkarlanmış, cəmiyyətin inkişafında ən mühüm amil olan işçi qüvvəsi, istehsal prosesi, istehsal vasitələrinin ictimai, kollektiv əmək sərfi zamanı yaranan əmək hüquq münasibətlərinin ayrı-ayrı elementlərinin (əmək müqaviləsi, əmək haqqı, istirahət hüququ, intizam məsuliyyəti, maddi stimullaşdırma formaları və s.) əmək hüquq münasibəti sisteminin tərkib hissələri olmaqla fərdi, funksional xarakterli olması diqqətə çatdırılmışdır. Daha sonra qeyd edilmişdir ki, əmək münasibətləri sistemi məkan və zaman çərçivəsində istənilən hərəkətlərin bütün mərhələlərini əhatə edir. Bu mərhələlərin hər biri müəyyən əmək hüquq münasibətlərinin məcmusunu təşkil edir.

Əmək hüquq münasibətləri sisteminin komponentləri arasında olan əlaqə o qədər sıx və təbiidir ki, birinin dəyişməsi o birinin və ya tam sistemin dəyişməsinə gətirib çıxarır. Belə ki, fərdi əmək münasibətlərinin hüquqi nizamlanmasının (əmək hüquqlarının və vəzifələrinin genişləndirilməsi və s.) dəyişdirilməsi əsaslı şəkildə əmək münasibətlərində müəyyən dəyişikliklə üzləşir. Əksinə, kollektiv əmək münasibətlərinin hüquqi nizamlanmasının əsaslı şəkildə dəyişdirilməsi fərdi əmək münasibətlərində özünü göstərir. Əmək hüquq münasibətləri sistemini struktur elementlərinin uyğunlaşdırılması sistemi tamamlayır. Həmçinin o da qeyd edilir ki, əmək münasibətləri sisteminin daxili əlaqələrinin əsasını əmək, habelə onun təbii və sosial xüsusiyyətləri təşkil edir. Əmək münasibətlərinin xarici əlaqələrinin əsası kimi isə aparıcı rolun əmək müqavilələrinə aid edilməsi onun vahid bir sistem olmasını şərtləndirir.

**Birinci fəslin üçüncü yarımfəslində** əmək hüququnda əmək münasibətlərinin prinsiplərinin tədqiqindən əvvəl "prinsip" sözünün həm Azərbaycan, həm də rus dillərinin izahlı lüğətində hərfi mənası, hüquqi anlayışı açıqlanır. Daha sonra əmək münasibətinin tərəflərinin hüquqları və bu hüquqlarla bağlı Azərbaycan Respublikasının əmək qanunvericiliyi sisteminə daxil olan normativ-hüquqi aktların işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərinin əsas başlanğıclarının, bu zaman rəhbər tutulan ideyaların, nəzəriyyənin, təlimin, elmin və s. müddəaların

tətbiqi şərtləri, əmək münasibətlərinin hüquqi nizamlanmasında əmək hüququnun prinsiplərinin müəyyən əlamətlərə görə fərqləndirilməsi ayrıca tədqiq olunur və aşağıdakı kimi xarakterizə edilir:

- iqtisadi-siyasi cəhətdən şərtləndirilməsi üzrə (burada əsas məqsəd kimi Azərbaycan dövlətinin və onun vətəndaşlarının sosial-iqtisadi vəziyyətləri ilə bağlı irəli sürülən daxili və xarici siyasət tədbirləri əsas götürülür);
- məzmun ümumiliyinə görə (belə ki, prinsiplərin hər biri bir sahəni deyil, özündə müxtəlif növ hüquqi normaların mahiyyətini ifadə edir);
- predmet müəyyənetmə bütövlüyünə görə (burada bu və ya digər eyni növdən olan ictimai əmək münasibətlərinin, yaxud da tipik (nümunəvi) ictimai münasibətlərin ayrı-ayrı hissələrinin deyil, bütövlükdə ümumi normaların tənzimlənməsi əsas götürülür);
- dövlət normativliyinə görə (adətən hüquq prinsipləri özündə rəhbər ideyaları əks etdirdiyi üçün həm davamlı, həm də həmin normaların ümummacburi xarakterli olmalarına görə dövlətin sanksiyalaşdırılmış məcburetmə tədbirləri mövcud olur);
- sistemliliyinə görə (onlar digər hüquq normaları ilə qarşılıqlı şəkildə müəyyən hüquq sahələri, institutları çərçivəsində ifadə olunur);
- məqsədyönlülüyünə görə (belə ki, əmək hüquq normaları qarşıya qoyulmuş vəzifələrin statistikasına görə deyil, dinamikasına (tətbiqinə) görə ifadə olunur);
- sabitliyinə görə (əmək hüququnun prinsipləri müəyyən uzunmüddətli dövr ərzində qüvvədə olur və hüquq sisteminin keyfiyyət tərəfini özündə əks etdirərək tez-tez dəyişməyə məruz qalmır).

Bu yarımfəsildə xüsusi olaraq qeyd olunur ki, əmək hüququ və hüquq münasibətini tənzimləyən hər hansı bir hüquq norması və yaxud digər normativ-hüquqi aktlar, habelə lokal normalar Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına, rəhbər, başlanğıc ideyalarına riayət etmədən qəbuledilməzdir və özlüyündə hər hansı bir əmək hüquq münasibətinin yaradılmasında hüquqi qüvvəyə malik deyildir. Əmək hüquq münasibətlərinin tənzimlənməsinin konstitusion-hüquqi əsasları kimi bir çox hüquqşünas alimlərin hüquqi-məntiqi ideya və düşüncələri üst-üstə düşsə də, say etibarilə az və ya çox olsa da, son nəticədə bu sahədə mövcud olan normaların tətbiqində bir o qədər də fikir ayrılığı yaranmamışdır. Bu

nöqteyi-nəzərdən təklif olunan "təhlükəsiz və sağlam əmək şəraiti ilə təmin etmək" ifadəsinin həm prinsip, həm də işəgötürənin əsas vəzifəsi kimi əmək qanunvericiliyində əks etdirilməsi məqsədəuyğun hesab edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinin 6-cı hissəsində vətəndaşların hüquqları sırasında "hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ" təsbit olunsa da, bu müddəa AR ƏM-nin 2-ci maddəsində nə prinsip kimi, nə də 12-ci maddəsində "işəgötürənin əsas vəzifələri və məsuliyyəti" sırasında öz əksini tapmamışdır. Yalnız Məcəllənin 222-ci maddəsi "Sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraitinin təmin edilməsi" adlandırılsa da, bu, əmək hüququnun prinsipi kimi qəbul edilə bilməz. Çünki həmin maddənin 1-ci hissəsinin dispozisiyasında göstərilir ki, işəgötürən sağlam və təhlükəsiz əmək şəraitinə, təhlükəli və zərərli istehsalat amillərinə nəzarəti təşkil edir və bu sahədə baş vermiş dəyişiklik barədə işçilərə müntəzəm olaraq vaxtında məlumat verir. Burada maddənin dispozisiyası işəgötürən üçün sağlam və təhlükəsiz əmək şəraiti yaratmağa borclu olması barədə imperativ norma müəyyən etmir, işəgötürənə yalnız nəzarət funksiyasını həvalə edir.

İşçilərin konstitusion əmək hüquqlarının həyata keçirilməsi zamanı obyektiv reallığın təmin edilməsi məqsədi ilə AR ƏM-nin 4-cü maddəsində göstərilən iş yerlərinin hər hansı birində işləməsindən asılı olmayaraq həmin iş yerində "təhlükəsiz və sağlam əmək şəraiti hüququnun təmin edilməsi"nin bir prinsip kimi AR ƏM-nin 2-ci maddəsinin 3-cü hissəsinin 5-ci abzasına, həmçinin təklif olunan "iş yerlərində təhlükəsiz və sağlam əmək şəraiti" yaradılması üzrə işəgötürənin vəzifələrinin əks olunduğu AR ƏM-nin 12-ci maddəsinin "g" abzasından sonra yeni abzasın "işçiləri təhlükəsiz və sağlam əmək şəraiti ilə təmin etmək" kimi əlavə edilməsi məqsədəuyğun hesab edilmişdir.

Tədqiqat işinin "Azərbaycan Respublikasında sahələr üzrə əmək münasibətlərinin tənzimlənməsinin konstitusion-hüquqi əsasları" adlanan **ikinci fəslinin birinci yarımfəslində** iqtisadiyyatın ayrı-ayrı sahələrində əmək münasibətlərinin tənzimlənməsinin ümumi xarakteristikası, yəni bütün sahələr üzrə eyni cür tətbiq edilən vahid normalarla yanaşı, xüsusi normaların şamil edildiyi məhdud saylı işçi kateqoriyası olan sahələrdən biri kimi mülki aviasiyanın uçuş-dispetçer heyətinin də adı çəkilir. Bu səbəbdən işçilərin ayrı-ayrı kateqoriyaları üzrə əmək hüququ normalarının fərqləndirilməsinin konkret nisbəti kimi xüsusi normalar vasitəsi ilə aşağıdakıların tənzimlənməsi araşdırılmış və diqqətə çatdırılmışdır:

– ümumi qayda ilə müqayisədə işə qəbulun və işdən azad etmənin xüsusi qaydası;

– iş və istirahət vaxtının tənzimlənmə xüsusiyyətləri;
– əməyin ödənilməsində təminatlar və üstünlüklər;
– bəzi kateqoriyalardan olan işçilərin (məsələn, dəmiryolu, hava nəqliyyatı) digər kateqoriyadan olan işçilərə nisbətdə daha ciddi intizam və maddi məsuliyyətini şərtləndirən amillər və s.

Həmçinin bu xüsusi normaların özlərinin də üç qrupa bölünməsi araşdırılmışdır: a) istisnaedici normalar; b) əlavəedici normalar; c) uyğunlaşdırıcı normalar.

Bu yarımfəsildə iqtisadiyyatın müxtəlif sahələrində əmək münasibətlərinin tənzimlənməsi prosesində ümumi və xüsusi əmək hüquq normalarının tətbiqinin mütləqliyi bütöv şəkildə şərh edilsə də, bəzi məqamların ətraflı izahına da yer ayrılmışdır. Məsələn, ICAO-nun mülki aviasiya sahəsində əmək münasibətlərinin tənzimlənməsi istiqamətində tətbiq edilən standartları və tövsiyələrinə tam uyğun şəkildə tərtib edilmiş Azərbaycanın Aviasiya Qaydaları Azərbaycan Respublikasının Dövlət Mülki Aviasiya Administrasiyası (AR DMAA) direktorunun 21.08.2009-cu il tarixli 24 nömrəli əmri ilə təsdiq olunmuş "Uçuş heyəti üzvlərinin tibbi müayinəsi – AAQ-HTM 3.010 tibbi sertifikat sahibinin əsas səlahiyyətləri bölməsi" birmənalı şəkildə tələb edir ki, hər hansı bir şəxs aviasiya personalının şəhadətnaməsinə və ixtisasına, həmçinin AAQ-HTM-ə müvafiq olaraq qüvvədə olan tibbi sertifikata malik deyilsə, aviasiya heyəti funksiyalarını yerinə yetirə və icazələrdən istifadə edə bilməz. Odur ki, adları qeyd edilən işçilər tibbi rəy olmadan peşə vəzifələrinin icrasına buraxılmırlar. Bu yarımfəsildə, həmçinin mülki aviasiyada fəaliyyət göstərən uçuş-dispetçer heyətindən olan namizədin AAQ-HTM-in tələblərinə uyğun olmadığı, yaxud artıq uyğun ola bilməyəcəyi müəyyən edilərsə, AR DMAA istənilən vaxt prosedurlara uyğun olaraq istənilən heyət üzvünün hüquqlarını məhdudlaşdıra, adı çəkilən Aviasiya Qaydalarına müvafiq verilmiş tibbi sertifikatın hüquqi qüvvəsini müvəqqəti və ya tam şəkildə dayandıra bilər.

**İkinci fəslin ikinci yarımfəslində** əmək münasibətlərinin tənzimlənməsinin hüquqi mənbələri və növləri həm hüquq nəzəriyyəsi sahəsindəki, həm də praktik alim və mütəxəssislərin şərhləri əsasında tədqiq edilmiş, əmək münasibətləri prosesləri zamanı və bununla əlaqədar digər münasibətlərin rəsmiləşdirilməsi ərəfəsində mütləq qaydada əmək qanunvericiliyi sisteminə daxil olan AR Konstitusiyasının, AR ƏM-in, AR əmək hüququ sahəsinə aid qanunlarının, müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyətləri çərçivəsində qəbul etdikləri normativ-hüquqi aktların, əmək, sosial-iqtisadi məsələlərlə bağlı Azərbaycan Respublikası-

nın bağladığı və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, habelə idarə, müəssisə və təşkilatların sahəvi əhəmiyyətli aidiyyəti lokal aktların müddəaları əsas tutulmuşdur.

Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, işçilərin əmək hüquqları və öhdəliklərinin dövlət tərəfindən qanunvericilik səviyyəsində tənzimlənməsi ilə yanaşı, hüquq tənzimlənməsinin digər bir üsulunu, yəni kollektiv müqavilə və fərdi müqavilə üsulunu da daxil etməyin mümkünlüyünün istisna edilmədiyi mülki aviasiya sahəsində əmək qanunvericiliyinin ümumi müddəalarının konkret əmək şəraitlərində konkret vəzifələrdə (peşələrdə) işləyən bəzi kateqoriyadan olan işçilər barəsində tətbiqi imkanları şərh edilmişdir. Daha sonra bu yarımfəsildə əmək münasibətlərini tənzimləyən əmək hüququnun mənbələri sistemində beynəlxalq müqavilə və sazişlərin mülki aviasiyada önəmli yerlərdən birini tutması, bu cür hüquq normalarının hüquqi qüvvəsinin aşağıdakı 3 aksioma üzərində qurulması qeyd edilmişdir:

- heç bir dövlətin BƏT-in qəbul etdiyi hüquqi məcburedici sənədlərə qarşı çıxa bilməməsi;
- heç bir dövlətin BƏT-in bu və ya digər Konvensiyasında nəzərdə tutulmuş müddəaları başqa cür ratifikasiya edə bilməməsi;
- BƏT-in Konvensiyalarının ratifikasiya olunub-olunmamasından asılı olmayaraq, üzv dövlətlərin BƏT-in sorğuları üzrə göstərilmiş milli qanunvericiliklərinin vəziyyəti haqqında məruzələr təqdim etmələri.

**İkinci fəslin üçüncü yarımfəsli** mülki aviasiyanın fəaliyyətində əmək hüququnun və əmək münasibətlərinin tənzimlənməsinin xüsusiyyətlərinə həsr edilmişdir. Burada xüsusi olaraq qeyd edilmişdir ki, uçuş-dispetçer heyətinin və aviasiya təhlükəsizliyini təmin edən işçilərin əmək münasibətlərinin tənzimlənməsində rəhbər tutulan məhdud dairəli normativ-hüquqi aktlarla yanaşı, mülki aviasiyanın digər kateqoriyadan olan işçilərinin əksər hissəsi barədə AR ƏM-in bütün müddəalarının şamil edildiyi ümumi normalar tədqiq edilmiş, obyektiv və subyektiv əsaslar fərqləndirilmişdir. Bu yarımfəsildə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında muzdlu əməklə məşğul olmalarının konstitusion hüquqi əsasları, bu sahədə qəbul edilmiş normativ-hüquqi aktların tətbiqi ilə bağlı tələblərin reallaşdırılması araşdırılmış, müqayisəli məqamlara diqqət yetirilmiş, onların əmək hüquqlarının tənzimlənməsi, hüquqi statusları (hüquqi vəziyyəti) ilə əlaqədar bir sıra təkliflər, elmi fikirlər irəli sürülmüşdür.

Tədqiqatın **ikinci fəslinin** "Mülki aviasiyada əməyin vahid diferensiasiya üzrə hüquqi tənzimlənməsinin ümumi xarakteristikası" adlı **dördüncü yarımfəslində** "diferensiasiya" sözünün mənası açıqlanmış, Azərbaycan və rus alimlərinin əmək hüququnun, habelə ayrı-ayrı əmək hüququ normalarının müxtəlif və eyni əmək şəraitində işləyən işçilərin əməyinin hüquqi tənzimlənməsini şərtləndirən amillər izah edilmişdir.

Əmək münasibətlərini tənzimləyən normaların ikili xarakter daşıması qeyd edilməklə bir tərəfdən onların tətbiqi sahəsində bütün işçilər üçün vahidliyi təmin edən və ümumi müddəaları özündə təsbit edən ümumi xarakterli normalar, digər tərəfdən isə işçilərin müxtəlif kateqoriyalarının əməyinin xüsusiyyətlərini nəzərə alan normaların mövcudluğu göstərilmiş, diferensiasiyanın ya güzəştlər, yaxud da məhdudiyyətlərlə əks olunan aşağıdakı 3 istiqaməti: a) istehsalat sahələrinin xarakteri və xüsusiyyətlərinə görə (sahəvi diferensiasiya); b) işçilərin yaşına, ixtisasına və digər xüsusiyyətlərinə görə (subyekt diferensiasiyası); c) birgə əməyin tətbiq olunduğu müəssisənin yerləşdiyi yerə görə (ərazi diferensiasiyası) diqqətə çatdırılmışdır. Mülki aviasiyanın ayrı-ayrı strukturlarında tətbiq edilən ümumi və xüsusi normaların fərqləndirilməsi əsasları kimi əmək qanunvericiliyi sisteminə daxil olan normativ-hüquqi aktlarla yanaşı, lokal xarakterli aktların müddəaları da əks etdirilmiş, AR ƏM-nin bəzi maddələrinin dəyişdirilməsi, yaxud yeni redaksiyada yazılması barədə əsaslandırılmış təkliflərin məqsədəuyğunluğu açıqlanmışdır.

"Mülki aviasiyada əmək fəaliyyətinin təşkilinin hüquqi tənzimlənməsinin xüsusiyyətləri" adlı **üçüncü fəslin birinci yarımfəsli** mülki aviasiyada iş vaxtının hüquqi tənzimlənməsinin anlayışı, növləri və xüsusiyyətlərinə həsr edilmişdir. Bu fəsildə əmək qanunvericiliyində nəzərdə tutulmuş iş vaxtı anlayışı, onun növləri, tənzimlənməsinin ümumi müddəaları ilə bağlı iqtisadiyyatın bütün sahələrində, o cümlədən mülki aviasiyada tətbiq edilən ümumi normalar şərh edilmişdir. Mülki aviasiyanın müəyyən strukturlarında, xüsusən də iş vaxtları xüsusi normativ aktlarla tənzimlənən, qısaldılmış iş vaxtı müəyyən edilən yüksək həssaslıq, həyəcan, zehni, fiziki və əsəb gərginliyi, habelə insanın səhhətinə təsir göstərən digər amillər olan əmək şəraitli iş yerləri üzrə:

- hava hərəkətini vahid idarəetmə sisteminin (dövrə, yaxınlaşma, enmə, start, yerlə sürmə) baş mərkəzi zalında işləyən uçuş rəhbəri, təlimatçı, böyük dispetçer, dispetçer;
- mülki aviasiyada uçuşların rəhbəri;
- hava hərəkətini idarəetmə xidmətinin təlimatçısı;

- radiomübadilənin yükündən asılı olmayaraq, aviasiya hava rabitəsi radiokanallarının qısa dalğalarında və radionəzarət radiostansiyalarında növbəli iş rejimində işləyən radiooperator vəzifəsində işləyənlər üçün AR Nazirlər Kabinetinin 12.08.2003-cü il tarixli 106 nömrəli qərarının müddəaları diqqətə çatdırılmışdır.

Bu fəsildə ICAO-nun standartları və tövsiyələri əsas tutulmaqla Azərbaycanın Aviasiya Qaydalarının müvafiq məcburi normalarının hava gəmilərində (təyyarə və helikopterlərdə) uçuşları həyata keçirən aviasiya heyəti üçün gündəlik, aylıq və illik ümumi iş vaxtlarının yekun saatlarının miqdarının hava gəmilərinin tipindən və eniş saylarından asılı olaraq müəyyən edilməsi, iş saatlarının hesablanması, iş vaxtından artıq işləməyə yol verilən saatların miqdarı, uçuş müddəti hesablanarkən nəzərə alınan hallar tədqiq edilmişdir. Araşdırmanın yekun nəticəsi olaraq hava gəmisinin heyət üzvləri ilə bərabər müvafiq uçuşların yerinə yetirilməsində eyni əmək şəraitli iş vaxtında yüksək həssaslıq, fiziki gərginlik, təzyiqin qalxması, enməsi, kosmik şüalanma, oksigen azlığı, səs-küy, titrəyişə məruz qalma hallarını yaşayan bort bələdçilərinin də həftəlik iş vaxtlarının qısaldılaraq 36 saat müəyyən edilməsi təklifi verilmişdir.

**Üçüncü fəslin ikinci yarımfəsli** mülki aviasiya işçilərinin istirahət vaxtlarının tənzimlənməsinin hüquqi əsasları və xüsusiyyətlərinə həsr edilmişdir. Bu fəsildə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əmək münasibətinə daxil olmuş hər bir işçi üçün işəgötürən tərəfindən zəruri əmək şəraitinin yaradılması ilə yanaşı, aşağıda adları qeyd edilən istirahət növlərinin hər birinin ayrı-ayrılıqda mütləq şəkildə təmin edilməsi vəzifələri də qeyd edilmişdir. İşçilərin konstitusion hüquqlarının reallaşdırılmasının hüquqi təminatı kimi aşağıdakı növlərə ayrılmış istirahətlərin:

- iş günü ərzində və iş günləri arası verilən istirahət;
- həftəlik istirahət;
- iş günü hesab edilməyən bayram günləri və digər günlərdə verilən istirahət (ümumxalq hüzn günü və səsvermə günü);
- illik məzuniyyətlərin fərqləndirilməsi ümumi və xüsusi beynəlxalq hüquq normalarının tətbiqinin zəruriliyi, bu sahədə mövcud olan normativ-hüquqi aktların tətbiqinin xüsusiyyətləri tədqiq edilmiş, hazırkı Əmək Məcəlləsinin bəzi maddələrində aşkar edilmiş boşluqların aradan qaldırılması və bütün işəgötürənlər tərəfindən birmənalı qaydada tətbiqini nəzərdə tutan aşağıdakı müddəanın həm AR ƏM-nin 2-ci əlavəsinin 8-ci bəndinin yeni redaksiyada

yazılması, həm də tərəflər arasında bağlanılacaq əmək müqaviləsinə 4.12.1 saylı yeni bənd əlavə olunması təklifi verilmişdir:

“Havanın temperaturu müsbət 41 dərəcə selsidən çox olan hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində, həmçinin havanın temperaturunun mənfi 10 dərəcə selsiyədək və küləyin gücünün 3 baldan artıq olduğu açıq havada, habelə ilin soyuq vaxtında örtülü, lakin isidilməyən binalarda temperatur müsbət 14 dərəcə selsiyədək olduğu iş yerlərində işin xarakterindən asılı olaraq iş günü ərzində hər bir iş saatından sonra gündəlik iş vaxtına daxil edilən 20 dəqiqəlik beş fasilə verilir”.

Bu fəsildə Əmək Məcəlləsində nəzərdə tutulmuş istirahət vaxtlarına uyğun spesifik iş xüsusiyyətlərinə malik mülki aviasiyanın ekipaj üzvlərinin uçuş, xidməti uçuş və istirahət vaxtının müddətini müəyyən edən “Uçuş vaxtının məhdudiyyətləri haqqında sənəd”in müddəaları da diqqətə çatdırılmışdır.

**Üçüncü fəslin üçüncü yarımfəslində** mülki aviasiya işçilərinin əmək haqlarının ödənilməsinin hüquqi əsasları və xüsusiyyətləri araşdırılmış, birmənalı şəkildə əmək haqqının mövcud əmək qanunvericiliyinin tələbləri çərçivəsində əmək münasibəti yaradan işçi və işəgötürənin qarşılıqlı razılaşma sənədi olan əmək müqaviləsinin rəsmiləşdirilməsinin zəruri şərtlərindən biri kimi qəbul edilməsi, BƏT-in sənədlərində, AR ƏM-də göstərilən qayda və prosedurlara müvafiq şəkildə işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğlərin, onlara edilən əlavələrin, mükafatların və digər ödənclərin verilməsi, işçilərin əməyinin ödənilməsinin (hüquqi tənzimlənməsinin) iki əsas (mərkəzləşdirilmiş (dövlət) və lokal (müqavilə) metodunun tətbiqi, əmək haqqının mühafizəsi ilə bağlı aşağıdakı dövlət təminatları:

- eyni əmək şəraiti və eyni vəzifədə (peşədə) işləyənlərin əməyinin ödənilməsində hər hansı bir ayrı-seçkiliyə yol verilməməsi;
- əmək haqqının azaldılmasına yol verilməməsi;
- əmək haqqının toxunulmazlığı, təminatlı və əvəzli ödəmələrlə bağlı müddəalar qeyd olunmuşdur.

Mülki aviasiya sistemində işləyən işçilərin əmək haqlarının iqtisadiyyatın digər sahələrinə nisbətən daha yüksək olması və onu şərtləndirən amillər diqqətə çatdırılmışdır.

Əmək haqqından tutulmalarla bağlı AR ƏM-nin 176-cı maddəsinin 3-cü hissəsinin 2-ci hissəsi ilə ziddiyyət təşkil etdiyi məqamları, həmçinin

adı çəkilən Məcəllənin 158-ci maddəsinin 3-cü hissəsinin obyektiv reallıqla uyğun olmayan hissəsinin (işçinin əmək haqqının miqdarı onun əmək funksiyasının icrasının nəticələri, şəxsi işgüzarlıq və peşəkarlıq səviyyəsi ilə müəyyən edilir və hər hansı bir hədlə məhdudlaşdırıla bilməz) qismən dəyişdirilərək aşağıdakı redaksiyada: "işçinin əmək haqqının miqdarı onun əmək funksiyasının icrasının nəticələri, şəxsi işgüzarlıq və peşəkarlıq səviyyəsi ilə müəyyən edilir və bu məqsədlə ödənilən əlavə əmək haqqının aylıq miqdarı onun aylıq vəzifə (peşə) maaşının 2 (iki) qat məbləğindən çox ola bilməz" kimi yazılması barədə əsaslandırılmış təkliflər verilmişdir.

Tədqiqatın **üçüncü fəslinin** "Mülki aviasiya işçilərinin əməyinin mühafizəsinin hüquqi əsasları və xüsusiyyətləri" adlı **dördüncü yarımfəslində** mülki aviasiyada işçilərin əməyinin mühafizəsinin konstitusion-hüquqi əsasları diqqətə çatdırılmış, beynəlxalq (regional) və dövlətlərarası standartların, normaların, qaydaların və tövsiyələrin ölkəmizdə tanınması və tətbiq edilməsi ilə bağlı mövcud qaydalar rəhbər tutulmaqla, işəgötürənin rəhbər olduğu idarə, müəssisə və təşkilatlarda sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması kompleksinə daxil olan əmək şəraitinin sanitar-gigiyenik normalaşdırılması, texnoloji proseslərin təhlükəsizliyinin təmin edilməsi, işçilərə əməyin təhlükəsizliyi qaydalarının öyrədilməsi, işçilərin fərdi mühafizə vasitələri ilə təminatı, iş və istirahət vaxtlarının optimal rejimlərinin təmin edilməsi, sanitar-məişət və müalicə-profilaktika xidmətlərinin həyata keçirilməsi tədqiq edilmişdir. İstehsalat qəzalarının, zədələnmələrinin, peşə xəstəliklərinin azaldılması və aradan qaldırılmasına yönəldilmiş tədbirlərin səmərəliliyi baxımından mülki aviasiyanın müvafiq strukturlarında "əməyin mühafizəsi" üzrə lazımi avadanlıq və vasitələrlə təchiz edilmiş kabinetlərin yaradılması diqqətə çatdırılmışdır. Əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət etməyin vacibliyi, əks təqdirdə vəzifəli və fiziki şəxslərin məsuliyyəti, respublika və beynəlxalq normaları əks etdirən normativ aktların müddəalarının şərhi diqqətçəkən məqamlar kimi qeyd edilmişdir.

Mülki aviasiyanın əsas göstəricisi, məlum olduğu kimi, uçuşların təhlükəsizliyi və aviasiya təhlükəsizliyidir. Adi baxışda bu iki anlayışın oxşar görünməsinə baxmayaraq, əslində onların hər birinin ayrılıqda mülki aviasiyanın davamlı və təhlükəsiz olmasında xüsusi yeri, AR DMAA-nın mülki aviasiya sahəsində mərkəzi icra hakimiyyəti orqanı kimi "əməyin mühafizəsi ilə bağlı dövlət siyasəti konsepsiyasının hazırlanmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etmək" istiqamətində fəaliyyəti, əməyin mühafizəsi ilə bağlı davamlı olaraq görülən işlərin, reallaşdırılan tədbirlərin bariz nümunəsi kimi AR DMAA, "Azərbaycan Hava Yollari"

QSC və Aviasiya İşçiləri Respublika Həmkarlar İttifaqı Komitəsi arasında bağlanmış sahə kollektiv sazişinin iş şəraiti, əməyin mühafizəsi və təhlükəsizlik bölməsinin aviamüəssisələrdə yerinə yetirilməsi məcburi sayılan müddəaları ətraflı şərh edilmişdir.

**Üçüncü fəslin beşinci yarımfəsli** mülki aviasiya işçilərinin attestasiyadan keçirilməsinin hüquqi əsasları və xüsusiyyətlərinə həsr edilmişdir. Bu fəsildə Azərbaycanın müstəqillik əldə edənə qədər sovetlər birliyinin tərkibində olduğu müddət ərzində mülki aviasiyanın fəaliyyəti ilə bağlı bütün məsələlərin, qarşıya qoyulmuş məqsəd və vəzifələrin, həmçinin mülki aviasiya işçilərinin attestasiyasının SSRİ-nin qanunvericilik və digər sahəvi normativ aktlara əsasən Mülki Hava Donanmasının Əsasnaməsi və SSRİ Nazirlər Sovetinin yanında Mülki Hava Donanması Baş İdarəsinin əmrləri ilə tənzimlənməsi, o cümlədən əvvəlki illərdə işçilərin attestasiyasının hüquqi mexanizmini özündə əks etdirən bir sıra sənədlərlə (Mülki hava donanması üzrə 01 iyun 1936-cı ildə 951 №-li əmrlə təsdiq olunmuş “Mülki hava donanmasının rəis heyətinin kateqoriyası haqqında əsasnamə”; Mülki hava donanmasının rəhbər, uçuş-enmə və mühəndis-texniki heyətinin attestasiyası haqqında Əsasnamə (10 aprel 1938-ci il, № 11); Mülki hava donanması Baş İdarəsinin təhsil müəssisələrinin dəyişkən heyətinin attestasiyası haqqında Mülki Hava donanması Baş İdarəsinin 13 aprel 1938-ci il tarixli 120 nömrəli əmri ilə təsdiq edilmiş Əsasnamə) ilə nizama salınması, adı çəkilən sənədlərin, yəni mülki aviasiya işçilərinin attestasiyasını tənzimləyən normativ-hüquqi aktların XX əsrin 60-cı illərinə qədər dəyişməz qaldığı tədqiq edilmiş, Azərbaycan Respublikasının mülki aviasiya işçilərinin attestasiyası üzrə mülki qanunvericilik və digər normativ-hüquqi aktların qəbulunun dövlət müstəqilliyi əldə edildikdən sonra mümkünlüyü araşdırılmış, attestasiya zamanı aşağıdakıların diqqətə çatdırılması məqsədəuyğun hesab olunmuşdur:

- attestasiya olunan işçinin mənəvi-əxlaqi keyfiyyətləri;
- attestasiya dövründə qəza halları;
- ixtisasartırmada, texniki dərslərdə mənimsəmə səviyyəsi;
- attestasiya dövründə intizamlılığı, intizam tənbehi və həvəsləndirilməsinin olub-olmaması;
- tutduğu vəzifə üzrə təlimatlara, qanunvericilik və digər normativ-hüquqi aktlara dair bilik və bacarığı;
- ictimai işlərdə iştirak fəallığı və s.

Bu fəsildə, həmçinin uçuş-dispetçer heyətinin fəaliyyətini və aviasiya təhlükəsizliyini, habelə aviasiya yanacaq-sürtkü materiallarının

keyfiyyətinə və hava gəmisinin yanacaqla doldurulmasına nəzarəti təmin edən işçilər barəsində attestasiya zamanı hər hansı bir güzəştin verilməsinin yolverilməzliyinin məqsədəuyğunluğu qeyd edilmişdir.

**Üçüncü fəslin altıncı yarımfəslində** mülki aviasiyada əmək fəaliyyətinin təşkilində problemlər tədqiq edilmiş, Azərbaycanın müstəqil aviasiyasının yaranmasına qədər özünün idarəetmə orqanının, normativ-hüquqi bazasının olmaması səbəbindən ilkin dövrlərdə əməyin təşkilində keçmiş sovetlər birliyindən qalmış normativ-hüquqi aktlardan istifadə etməklə yanaşı, mülki aviasiyanın aviasiya personalının əmək məsələlərini tənzimləyən yeni qanunvericilik bazasının yaradılmasını şərtləndirən amillərin nəzərə alınması məqsədi ilə bütün normativ-hüquqi aktların auditinin aparılmasının məqsədəuyğunluğu diqqətə çatdırılmışdır:

a) normativ-hüquqi bazanın faktiki vəziyyətini müəyyən etmək;

b) sovet dövrünün mülki aviasiyasının aviasiya heyətinin əmək şəraitini tənzimləyən aktlar ilə Azərbaycan Respublikasının qüvvədə olan əmək qanunvericiliyi arasındakı ziddiyyətləri aşkar etmək;

c) mülki aviasiyanın aviasiya heyətinin əməyinin hüquqi tənzimlənməsində boşluqları müəyyən etmək.

Bu fəsildə tədqiqat işinin bütün fəsilləri və yarımfəsilləri üzrə mövcud əmək qanunvericiliyində əmək münasibətlərinin yaranması, onda dəyişiklik edilməsi və xitamı zamanı rast gəlinən boşluqlar, eyni münasibəti tənzimləyən maddələrin ziddiyyətli məqamları, bəzi maddələrdə müəyyən söz və ifadələrin hərfi deyil, hüquqi mənada işlədilməsinin zəruriliyi, əvəzçiliklə işləməyə icazə verilməsini şərtləndirən hallar, ekipaj üzvləri sırasında uçuş işinin müvəffəqiyyətlə başa çatmasında xüsusi əməkləri olan, eyni əmək gərginliyi şəraitində, fiziki yorğunluqla üzləşən bort bələdçilərinin də qısaldılmış iş vaxtı rejimində işləmələrinin qanunvericilik qaydasında rəsmiləşdirilməsinin vacibliyi və s. bir sıra problemlərin həlli istiqamətində əsaslandırılmış fikirlər irəli sürülmüşdür.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

1. Azərbaycan Respublikasının əmək qanunvericiliyi sisteminə daxil olan normativ-hüquqi aktların mülki aviasiyada əmək münasibətlərinin tənzimlənməsində əmək hüququ sahəsində mövcud nəzəri, elmi və təcrübi anlayış, bilik, standart və tövsiyələr mənimsənilməklə ayrı-ayrı normativ-hüquqi, habelə lokal xarakterli aktların konkret işçilər barəsində tətbiqi ilə bağlı təkliflər verilmiş, əmək hüquq münasibətinin yaranması və xitamı kimi əmək müqaviləsinin mövcudluğunun bəzi problem məqamları açıqlanmışdır. Belə ki, AR ƏM-nin 12-ci maddəsinin 1-ci hissəsinin "c" bəndində "əmək müqavilələrini bu məcəllədə nəzərdə tutulmuş əsaslarla və qaydada pozmaq" işəgötürənin əsas vəzifəsi və məsuliyyəti, 111-ci maddəsinin 1-ci hissəsində "habelə işəgötürənin təşəbbüsü ilə əmək müqaviləsinin pozulması" kimi ifadə olunmuş cümlələrdə "pozmaq" sözü "Azərbaycan dilinin izahlı lüğəti"nə istinadən izah edilmiş, həmin sözlərin Məcəllənin müvafiq maddələrinin uyğun hissələrində:

- ƏM-nin 12-ci maddəsində əmək müqavilələrini bu Məcəllədə nəzərdə tutulmuş əsaslarla və qaydada ləğv etmək və ya xitamını rəsmiləşdirmək;
- 111-ci maddəsində isə habelə işəgötürənin təşəbbüsü ilə əmək müqaviləsinin ləğv edilməsi sözlərinin yazılması məqsədəuyğun hesab edilmişdir.

2. Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinin 6-cı hissəsində vətəndaşların hüquqları sırasında təsbit olunmuş "hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ"nun təmini ifadəsi prinsip kimi AR ƏM-nin 2-ci maddəsində, həmçinin 12-ci maddəsində "işəgötürənin əsas vəzifələri və məsuliyyəti" sırasında öz əksini tapmamışdır. Odur ki, hər bir işçinin AR ƏM-nin 4-cü maddəsində göstərilən iş yerlərindən hər hansı birində işləməsindən asılı olmayaraq, həmin iş yerində "təhlükəsiz və sağlam əmək şəraiti hüququnun təmin edilməsi"nin bir prinsip kimi AR ƏM-nin 2-ci maddəsinin 3-cü hissəsinin 5-ci abzasına, həmçinin "iş yerlərində təhlükəsiz və sağlam əmək şəraiti" yaradılması üzrə işəgötürənin vəzifələrinin əks olunduğu AR ƏM-nin 12-ci maddəsinin "ğ" abzasından sonra yeni abzasın - "işçiləri təhlükəsiz və sağlam əmək şəraiti ilə təmin etmək" kimi əlavə edilməsi məqsədəuyğun sayılmışdır.

3. Əmək münasibətində olan işçinin öz təşəbbüsü ilə əmək müqaviləsini ləğv etmək istəyinin mövcud Əmək Məcəlləsinin 68-ci

maddəsinin 2-ci hissəsinin “a” bəndinin, yaxud 69-cu maddəsinin tələbləri dairəsində rəsmiləşdirilməsi ayrı-ayrı işəgötürənlər tərəfindən eyni cür tətbiq edilmədiyini Əmək Məcəlləsinin 69-cu maddəsinin 5-ci, 76-cı və 300-cü maddələrinin 1-ci hissələrinə istinadən əsaslı dəlillərlə həmin maddənin adının dəyişdirilərək əvvəlkindən fərqli şəkildə “Əmək müqaviləsinin işçinin təşəbbüsü ilə ləğv edilməsi qaydası” deyil, “İşçi tərəfindən əmək müqaviləsinin ləğv edilməsi” adlandırılması tövsiyə edilmişdir. Əgər maddənin adı göstərilən redaksiyada yazılarsa, hüquqşünaslar və kadrlar üzrə mütəxəssislər birmənalı şəkildə hər hansı mübahisə olmadan işçilərin öz təşəbbüsləri ilə əmək müqavilələrini ləğv etmək istəklərini birbaşa AR ƏM-nin 69-cu maddəsinin müvafiq hissələrini rəhbər tutmaqla reallaşdıra bilərlər.

4. AR ƏM-nin 55-ci və 158-ci maddələrinin dispozisiyalarındakı ifadələr üzrə işəgötürənin hüquqlarının həddinin qanunvericiliklə müəyyən edilməsinin təcrübədə hansı xoşagəlməz hallarla üzləşməsi əsaslı dəlillərlə qeyd edilir.

Adı çəkilən maddələrin məzmununda qismən dəyişiklik aparılmaqla aşağıdakı redaksiyada yazılmaları təklifi irəli sürülmüşdür:

– əmək müqaviləsi bağlanarkən, habelə əmək münasibətləri prosesində işəgötürən imkanı hesabına bu Məcəllədə, yaxud kollektiv müqavilədə nəzərdə tutulmuş əmək şəraitinin şərtlərindən daha yüksək əlavə əmək haqqı, əlavə məzuniyyət müddəti, qısaldılmış və ya natamam iş vaxtı, əlavə fərdi sığorta məbləği, sosial təminat və yardımlar müəyyən edə bilər. Göstərilən əlavə şərtlər eyni əmək şəraitində işləyən işçilər üçün nəzərdə tutulmuş mövcud şərtlərin 2 (iki) qat məbləğindən çox ola bilməz. Bu əlavə şərtlərin dairəsi, qüvvədə olma müddəti və istifadə qaydaları əmək kollektivinin ictimai rəyi nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilir;
– işçinin əmək haqqının miqdarı onun əmək funksiyasının icrasının nəticələri, şəxsi işgüzarlıq və peşəkarlıq səviyyəsi ilə müəyyən edilir və bu məqsədlə ödənilən əlavə əmək haqqının aylıq miqdarı onun aylıq vəzifə (peşə) maaşının 2 (iki) qat məbləğindən çox ola bilməz.

5. AR ƏM-nin 13-cü maddəsinin və əcnəbilər haqqında qanunvericilik aktlarının müddəaları, həmçinin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının kompleks şəkildə öyrənilməsi qanunun “əcnəbilər hüququ” adlandırılmasını şərtləndirir. Belə ki, hər bir dövlətin ərazisində yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin

hüquqi statusu və hüquqi vəziyyəti həmin dövlətin Konstitusiyası və milli qanunvericilik aktları ilə tənzimləndiyi üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən bütün hüquqları, o cümlədən əmək hüquqlarını da “əcnəbilərin hüquqları” kimi qiymətləndirmək tövsiyə olunur.

6. Bəzi kateqoriyadan olan işçilərə əsas və əlavə məzuniyyət müddəti nəzərə alınmadan, bəzilərində isə əsas və əlavə məzuniyyətə bölünmədən məzuniyyətin daha uzun müddətə verilməsi səbəbindən qeyri-müəyyənlik yaranır. Məzuniyyətlərin verilməsində gələcəkdə hər hansı bir mübahisə predmeti yaranmaması üçün qanunvericilik qaydasında nəzərdə tutulmuş xüsusi normaların tətbiqi istisna olmaqla, işçilərin illik məzuniyyəti üçün əmək qaunuvericiliyinin müvafiq maddələri ilə, kollektiv və ya əmək müqavilələri ilə müəyyən edilmiş illik ödənişli əmək məzuniyyətinin müddəti konkret təqvim günü ilə göstərilməlidir (məsələn 35, 42, 46 və s. təqvim günü). Lakin Əmək Məcəlləsinin 119, 120-ci və bəzi digər maddələrində 35, 42, 46 təqvim günündən az olmayaraq kimi təsbit olunması eyni əmək şəraitində işləyən bəzi kateqoriyadan olan işçilərə nisbətdə digərləri daha çox həddi müəyyən olunmayan üstünlük əldə etmək imkanına malik olurlar. Maddələrin dispozisiyasındakı bu ifadələr işəgötürənə qanunvericilik yolu ilə ayrı-ayrı işçilərə özünün istəyindən asılı olaraq daha uzunmüddətli məzuniyyət verməsini məhdudlaşdırmır. Nəticədə işçilər arasında süni ayrı-seçkilik üçün “qanuni əsas” yaranır.

7. Bort bələdçiləri uçuş heyətinin tərkibində bütün uçuş müddəti ərzində ekipaj üzvlərinin keçirdikləri fiziki gərginlik, təzyiqin qalxıb-enməsi, oksigen azlığı, təhlükəli uçuş vəziyyətləri yarandığı halda stress keçirmə, səs-küy və titrəyişlərə məruz qalırlar. AR Nazirlər Kabinetinin 12.08.2003-cü il tarixli 106 nömrəli qərarı ilə bort bələdçilərindən başqa bütün uçuş heyəti üzvləri üçün həftədə 36 saatlıq iş vaxtı müəyyən edilmişdir. Eyni əmək şəraitində fəaliyyət göstərən bort bələdçilərinin qısaldılmış iş vaxtı ilə işləmələri həmin siyahıda qeyd edilməmişdir. Göstərilən səbəblər nəzərə alınmaqla bort bələdçilərinin də Nazirlər Kabinetinin adı çəkilən qərarındakı vəzifələrin siyahısına əlavə edilməsi məqsədəuyğun hesab edilmişdir.

**Dissertasiyanın mövzusu üzrə dərc olunmuş elmi əsərlər**


1. Правовое регулирование времени отдыха авиационного персонала в Азербайджанской Республике // Beynəlxalq hüquq və inteqrasiya problemləri. Elmi-analitik jurnal, Bakı 2013, №2 (34), s.166-171.
2. Mülki aviasiya işçilərinin attestasiyadan keçirilməsinin hüquqi əsasları və xüsusiyyətləri // Milli Aviasiya Akademiyasının Elmi Məcmuələri. Bakı, 2013, Cild 15, №4, s.168-171.
3. Mülki aviasiya işçilərinin attestasiyadan keçirilməsinin hüquqi əsaları və xüsusiyyətləri // Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal. Bakı, 2013, №4, s.98-103.
4. Mülki aviasiyada əməyin vahid diferensiasiya üzrə hüquqi tənzimlənməsinin ümumi xarakteristikası // Milli Aviasiya Akademiyasının Elmi Əsərləri. Bakı, 2014, №1, s.56-71.
5. Azərbaycan Respublikasının mülki aviasiyasında əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əmək hüququ münasibətlərinin tənzimlənməsi // Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal. Bakı, 2014, №2, s.15-24.
6. Правовое регулирование рабочего времени авиационного персонала в Азербайджанской Республике / Материалы IV Международной научно-практической конференции «Человек, общество, государство: правовое измерение в современном мире». Киев, 27 февраля 2014 г., стр. 666-668.
7. Соотношение норм внутригосударственного и международного права в правовом регулировании рабочего времени авиационного персонала в Азербайджанской Республике // Право і суспільство. Науковий журнал. Дніпропетровськ, 2014, №6, стр. 187-193.
8. Mülki aviasiyada iş vaxtının hüquqi tənzimlənməsi xüsusiyyətləri / "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının konstitusiya təminatının aktual problemləri" mövzusunda Beynəlxalq Elmi-praktiki Konfrans. Bakı, 07 noyabr 2014.

**Гусейнов Агашукюр Алигусейн оглу**

## РЕЗЮМЕ


### Конституционно-правовые основы регулирования трудовых отношений в гражданской авиации Азербайджанской Республики

В диссертационной работе исследованы конституционные и правовые основы регулирования трудовых отношений в гражданской авиации Азербайджанской Республики.

Рассмотрены основы регулирования трудовых отношений, исследованы права и обязанности сторон трудовых отношений, порядок оформления и способы создания, изменения и прекращения этих отношений.

Независимо от формы собственности и организационно-правовой формы на всех рабочих местах применения трудового законодательства, в том числе в гражданской авиации, определен круг работников, к которым применяются положения общих и специальных правовых норм.

Разработаны конституционно-правовые основы по регулированию условий труда по отраслям, дифференциации по полу, возрасту и физиологическому качеству работника во время выполнения трудовых функций по рабочим местам и должностям.

Исследованы и разработаны нормы по времени работы и отдыха, заработной плате, охране труда и аттестации работников, играющие важную роль в гражданской авиации, в том числе в организации трудовой деятельности летно-диспетчерского состава.

**Agashukur A. Huseynov**

## SUMMARY

## Constitutional and legal basics of labor relations in civil aviation of Azerbaijan Republic

The thesis studied the constitutional and legal bases of labour relations in civil aviation of Azerbaijan Republic.

The basics of labour relations were analyzed, rights and obligations of the parties of labour relations, procedures and methods of creating, changing and terminating these relations were investigated.

Regardless of the form of ownership and legal form in all workplaces of labour law, including civil aviation, circle of workers, to which the provisions of general and special legal norms are applied, was defined.

Constitutional and legal framework for the regulation of working conditions by industry, differentiation by sex, age and physiological quality of the employee during work functions for jobs and positions were developed.

Rules on working time and rest, wages, labour protection and certification of employees, which play an important role in civil aviation, including the organization of flight crew and ATC personnel work, were researched and developed.

Çapa imzalanmışdır: 27.10.2014
Kağız formatı: 60×84 1/16
Həcmi: 2 f.ç.v. Tiraj 100

---

"Azərbaycan Hava Yolları"
Qapalı Səhmdar Cəmiyyətinin
Milli Aviasiya Akademiyasının
Poliqrafiya Mərkəzində çap olunmuşdur.

**ЗАКРЫТОЕ АКЦИОНЕРНОЕ ОБЩЕСТВО**
**«АЗЕРБАЙДЖАН ХАВА ЙОЛЛАРЫ»**
**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ АВИАЦИИ**

---

*На правах рукописи*

**ГУСЕЙНОВ АГАШУКЮР АЛИГУСЕЙН ОГЛУ**

# КОНСТИТУЦИОННО-ПРАВОВЫЕ ОСНОВЫ РЕГУЛИРОВАНИЯ ТРУДОВЫХ ОТНОШЕНИЙ В ГРАЖДАНСКОЙ АВИАЦИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Специальности:
5607.01 – Конституционное право; муниципиальное право
5609.01 – Трудовое право; право социального обеспечения

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**Баку – 2014**